# KOBİA-nın dəstək mexanizmlərinin səmərəliliyinin qiymətləndirilməsi və təsirlərin ölçülməsi

SORĞU NƏTİCƏLƏRİ

2025

# SORĞU HAQQINDA ÜMUMİ MƏLUMAT

**KOBİA**

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

Sorğu KOBİA-nın sifarişi əsasında «GMB Klaster Konsaltinq» MMC şirkəti tərəfindən keçirilmişdir.

BU SORĞUDA 203 KOB subyekti İŞTİRAK ETMİŞDİR.

Sorğu 13.10.2025- 03.11.2025-ci il tarixlərində keçirilmişdir.

Sorğudakı cavablar göstərir ki, sahibkarların tələbləri çox aydındır: KOBİA-nın dəstəyi dəyərlidir, amma miqyas, sürət, praktiklik və bürokratiya sahəsində ciddi təkmilləşdirmələrə ehtiyac var.

Sahibkarların Əsas Narahatlıqları Bürokratiya və sənədləşmə yükü, Startup şəhadətnaməsinin təsirsizliyi, Zəif kommunikasiya və Proqramların miqyasının azlığıdır.

Azlıq təşkil edən bir qrup sahibkar isə Şəffaflıqla bağlı narazılıqları, Dəstəyin real biznes ehtiyacına uyğun olmaması və Prototip → Final məhsul mərhələsində boşluqlar olduğunu qeyd edib.

# STATİSTİK GÖSTƏRİCİLƏR

# 1.Müəssisənin fəaliyyət göstərdiyi iqtisadi rayon



| | Bakı | Qazax-Tovuz | | |
|---|---|---|---|---|
| Say | 202 | 1 | | |
| Faiz | 99.5 | 0.5 | | |

# 2.Hüquqi statusu



| | Hüquqi şəxs | Fiziki şəxs | | |
|---|---|---|---|---|
| Faiz | 66 | 34 | | |
| Say | 134 | 69 | | |

# 3.Fəaliyyət sahələri



| | İstehsal | Ticarət | Xidmət | Kənd təsərrüfatı | Təhsil | Digər |
|---|---|---|---|---|---|---|
| Say | 16 | 12 | 141 | 4 | 10 | 20 |
| Faiz | 7.9 | 5.9 | 69.5 | 2 | 5 | 10 |

# 4. Müəssisəniz neçə ildir fəaliyyət göstərməkdədir?



| | 1 ildən az | 1-5 il | 6-10 il | 11 il və daha çox |
|---|---|---|---|---|
| Say | 65 | 106 | 9.9 | 12 |
| Faiz | 32 | 52.2 | 20 | 2.8 |

# 5. Müəssisənizdə neçə nəfər işçi çalışır?



| | 1-10 aralığında | 11-50 aralığında | 51-250 aralığında | |
|---|---|---|---|---|
| Say | 153 | 48 | 2 | |
| Faiz | 75.4 | 23.6 | 1 | |

# Sorğuda iştirak edən:

| | Say | Faiz (%) |
|---|---|---|
| Sahibkar | 155 | 76.4 |
| Direktor/rəis/müdir | 46 | 22.7 |
| Şöbə (departament) müdiri | 2 | 1 |

# 7. Sahibkarlıq fəaliyyətində idarəetmə təcrübəniz nə qədərdir?



| | 1 ildən az | 1-5 il | 6-10 il | 11 il və daha çox |
|---|---|---|---|---|
| Say | 51 | 93 | 41 | 18 |
| Faiz | 25.1 | 45.8 | 20.2 | 2.8 |

# 8. Cinsiniz?



| | Qadın | Kişi | | |
|---|---|---|---|---|
| Faiz | 11.3 | 4.4 | | |
| Say | 23 | 180 | | |

# 9. Təhsiliniz?



| | Tam orta təhsil | Bakalavr | Magistratura və ya Doktorantura | |
|---|---|---|---|---|
| Faiz | 2.5 | 43.3 | 54.2 | |
| Say | 5 | 88 | 110 | |

# KOBİA-nın hansı dəstək mexanizmləri ilə tanışsınız?

| | Say | Faiz (%) |
|---|---|---|
| KOB evlərində "bir pəncərə" xidmətləri | 66 | 32.5 |
| Qrant və maliyyə dəstəyi proqramları | 103 | 50.7 |
| Təlim və maarifləndirmə proqramları | 86 | 42.4 |
| KOB könüllüləri və mentorluq xidmətləri | 58 | 28.6 |
| Startap və innovasiya təşəbbüslərinin dəstəyi | 99 | 48.8 |
| İxrac və beynəlxalq əməkdaşlıq təşviqi | 21 | 10.3 |
| Digər | 5 | 2.5 |

Bu suala respondentlər bir neçə cavab verə bilib

# KOBİA-nın regionlarda fəaliyyətindən xəbərdarsınızmı?






# KOBİA-nın hansı dəstək tədbirindən yararlanmışsınız?

| | Say | Faiz (%) |
|---|---|---|
| Təlim və seminar proqramları | 39 | 19.2 |
| Qrant və maliyyə dəstəyi | 84 | 41.4 |
| Məsləhət və mentorluq xidmətləri | 16 | 7.9 |
| İnnovasiya və startap dəstəyi | 40 | 19.7 |
| KOB evlərində göstərilən xidmətlər | 15 | 7.4 |
| Beynəlxalq əməkdaşlıq layihələri | 4 | 2 |
| Digər | 71 | 35.1 |

Bu suala  respondentlər bir neçə cavab verə bilib

# İştirak etdiyiniz proqramın ümumi keyfiyyətini necə qiymətləndiririrsiniz?



# KOBİA-nın təlim və maarifləndirmə proqramları sizə praktik fayda veribmi?



# KOBİA-nın dəstək mexanizmlərinin ümumi səmərəliliyini necə qiymətləndirirsiniz?






# KOBİA-nın təqdim etdiyi dəstək sizə hansı istiqamətlərdə real təsir göstərib?

| | Say | Faiz (%) |
|---|---|---|
| Biznesin böyüməsi və gəlirin artması | 57 | 28.1 |
| Yeni iş yerlərinin açılması | 24 | 11.8 |
| Rəqəmsallaşmanın təşviqi | 20 | 9.9 |
| Yeni bazarlara çıxış | 16 | 7.9 |
| İdarəetmədə təkmilləşmə | 61 | 30 |
| Hələ təsir hiss olunmur | 80 | 39.4 |

Bu suala respondentlər bir neçə cavab verə bilib

# Qrant və maliyyə dəstəyi mexanizmlərini necə qiymətləndirirsiniz?






# Təlim proqramlarının keyfiyyət səviyyəsi:



# KOB evlərində göstərilən xidmətlərin (vergi, gömrük, qeydiyyat və s.) səviyyəsi ilə məmnunluq dərəcəniz:



# KOBİA-nın fəaliyyətində hansı sahə daha səmərəlidir?

| | Say | Faiz (%) |
|---|---|---|
| Təlim və maarifləndirmə | 95 | 46.8 |
| Qrant və maliyyə dəstəyi | 94 | 46.3 |
| KOB evləri | 53 | 26.1 |
| Beynəlxalq əməkdaşlıq | 40 | 19.7 |
| Startap və innovasiya dəstəyi | 61 | 30 |

Bu suala respondentlər bir neçə cavab verə bilib

# KOBIA proqramlarına müraciət zamanı hansı çətinliklərlə qarşılaşmısınız?

| | Say | Faiz (%) |
|---|---|---|
| Müraciət prosesi mürəkkəbdir | 52 | 25.6 |
| Şəffaflıqla bağlı narahatlıqlar | 21 | 10.3 |
| Məlumat çatışmazlığı | 56 | 27.6 |
| Qəbul meyarları qeyri-dəqiqdir | 27 | 13.3 |
| Texniki və sənədləşmə problemləri | 79 | 38.9 |
| Digər | 37 | 18.5 |

Bu suala respondentlər bir neçə cavab verə bilib

# KOBİA-nın proqramları haqqında məlumatı əsasən haradan əldə edirsiniz?

| | Say | Faiz (%) |
|---|---|---|
| Rəsmi KOBİA saytı | 136 | 67 |
| Sosial media | 133 | 65.5 |
| Digər sahibkarların tövsiyəsi | 18 | 8.9 |
| KOB evlərindən | 7 | 3.4 |
| Digər | 3 | 1.5 |

Bu suala respondentlər bir neçə cavab verə bilib

# KOBİA-nın dəstəyindən sonra biznes fəaliyyətinizdə hansı dəyişikliklər müşahidə etmisiniz?

| | Say | Faiz (%) |
|---|---|---|
| Gəlir artıb | 24 | 11.8 |
| Yeni məhsul/xidmət yaradılıb | 62 | 30.5 |
| İşçilərin sayı artıb | 14 | 6.9 |
| Yeni bazarlara çıxış əldə olunub | 68 | 33.5 |
| Heç bir dəyişiklik olmayıb | 69 | 34 |

Bu suala  respondentlər bir neçə cavab verə bilib

# KOBİA-nın dəstəyinin uzunmüddətli təsiri varmı?






# KOBİA-nın dəstəyini digər dövlət və ya özəl proqramlarla müqayisə etsəniz, necə qiymətləndirərdiniz?






# KOBİA-nın fəaliyyətini daha effektiv etmək üçün hansı dəyişiklikləri vacib hesab edirsiniz?

| | Say | Faiz (%) |
|---|---|---|
| Müraciət mexanizmlərinin sadələşdirilməsi | 86 | 42.4 |
| Qrant və dəstək proqramlarında şəffaflığın artırılması | 63 | 31 |
| Regionlarda KOB evlərinin sayının artırılması | 28 | 13.8 |
| Daha çox praktiki təlim və mentorluq proqramları | 79 | 38.9 |
| Startap və innovasiya layihələrinin maliyyələşdirilməsi | 79 | 38.9 |

Bu suala respondentlər bir neçə cavab verə bilib

# KOBİA-nın xidmətlərindən istifadə etməyən sahibkarların əsas səbəbləri nələr ola bilər?

| | Say | Faiz (%) |
|---|---|---|
| Məlumat azlığı | 98 | 48.3 |
| Bürokratik prosedurlar | 27 | 13.3 |
| İnamsızlıq | 78 | 38.4 |
| Uyğun proqramların olmaması | 102 | 50.2 |
| Digər | 4 | 2 |

Bu suala respondentlər bir neçə cavab verə bilib

# Ümumilikdə KOBİA-nın fəaliyyətindən məmnunluq səviyyənizi necə qiymətləndirirsiniz?






# Yararlandığınız KOBİA-nın dəstək mexanizmlərini 5 ballıq sistemlə qiymətləndirin: (açıq sual)



| | Qrant dəstəyi | Startap şəhadətnaməsi | Daxili bazar araşdırması | Sərgi və yarmarkalarda iştirak | İnvestisiya təşviqi sənədi | İri ticarət şəbəkələrinə çıxış | KOB klaster şəhadətnaməsi | Təlim və məsləhət xidməti |
|---|---|---|---|---|---|---|---|---|
| 1 bal | 14 | 10 | 15 | 19 | 19 | 22 | 20 | 12 |
| 2 bal | 7 | 13 | 14 | 16 | 20 | 20 | 21 | 18 |
| 3 bal | 21 | 38 | 39 | 28 | 45 | 37 | 36 | 35 |
| 4 bal | 75 | 68 | 66 | 70 | 56 | 60 | 63 | 64 |
| 5 bal | 86 | 74 | 69 | 70 | 63 | 64 | 63 | 74 |

1 bal 2 bal 3 bal

# YEKUN NƏTİCƏLƏR

Sorğunun nəticələrinə əsasən, sahibkarların əksəriyyətinin ortaq istəklərinin

**Daha çox maliyyə,**

**Daha sadə proseslər,**

**Daha operativ kommunikasiya,**

**Real startap dəstəyi,**

**İnvestor cəlbi**

və

**Regionlara bərabər xidmət**

olduğunu asanlıqla müşahidə etmək mümkündür.

# TƏKLİFLƏR

# Müraciət və sənədləşmə prosesinin sadələşdirilməsi

- Qrant və dəstək proqramlarına müraciət formalarının sadələşdirilməsi
- Elektron müraciət sistemi təkmilləşdirilməsi, sənəd tələblərinin azaldılması
- "Necə müraciət etməli?" adlı aydın bələdçi hazırlanması
- Sənəd nümunələrinin paylaşılması
- Müraciətlərə cavab müddəti konkret qaydalarla (məsələn, maksimum 15 iş günü) müəyyən edilməsi sahibkarların sənədləşdirmə prosesi barəsindəki narazılıqlarını xeyli azaldacaqdır.

# Əlaqə və kommunikasiya kanallarının təkmilləşdirilməsi

- Sahibkarlarla operativ əlaqə üçün “hotline” və ya “chat support” sistemi qurulması
- Müraciət statuslarını izləmək üçün onlayn platforma yaradılması
- Regionlardakı sahibkarlar üçün **davamlı məlumatlandırma kampaniyaları** keçirilməsi
- Müraciətlərə daha operativ cavab verilməsi
- SMS və e-poçt ilə avtomatik status bildirişləri bu mövzuda sahibkarlara yararlı olacaqdır.

# Maliyyə dəstəyi alternativlərinin artırılması

Qrant büdcəsinin artırılması

Aşağı faizli kredit mexanizmləri

Faiz subsidiyası

Banklarla dövlət zəmanətli proqramlar

"İnvestor günləri"nin təşkili və xarici akseleratorlarla əməkdaşlıq məqsədəuyğun görünür.

# Təlim və məsləhət xidmətlərinin artırılması

- Təlimlərin daha çox **real biznes problemlərinə, maliyyə idarəçiliyinə, vergi və mühasibatlığa** yönəlməsi
- Praktiki mentorluq və "peer-to-peer learning" proqramları yaradılaraq uğurlu sahibkarların təcrübələrinin paylaşılması
- Regionlarda təlimlərin sayının artırılması və interaktiv formatda keçirilməsi
- Daha çox praktik və sahəyə uyğun təlimlər (məsələn: Kənd təsərrüfatı istehsalı, İT məhsul hazırlığı, Eksport prosedurları, Maliyyə idarəetməsi, vergi və mühasibatlıq sahələrində) keçirilməsi sahibkarların qeyd etdiyi bir çox problemin həllinə fayda verəcəkdir.

# Startap və ixrac dəstəyinin gücləndirilməsi

- Startap şəhadətnaməsi olan şirkətlər üçün **yerli və beynəlxalq sərgilərdə ədalətli iştirak** imkanları yaradılması
- KOBİA-nın dövlət qurumları ilə birlikdə **ixrac yönümlü startapların** bazar araşdırması və məhsul testinə dəstək verməsi
- Startapların məhsullarından istifadə edərək dövlət sifarişlərində onlara üstünlük verilməsi ("local product first" siyasəti)
- Gömrük, vergi və digər dövlət qurumları ilə koordinasiya yaradılması
- "Startap sürətləndirmə paketi"  kimi Mentorluq, İnvestor məsləhətləşmələri, Bazar giriş dəstəyi, Texniki konsultasiyanı əhatə edən proqlamlar yaradılması effektiv nəticələr verəcəkdir.

# Regionlarda dəstək infrastrukturunun genişləndirilməsi

- KOB evlərinin sayı artırılsın və regionlarda KOBİA nümayəndəliklərnin daha aktiv fəaliyyət göstərməsi
- Regionlardakı sahibkarların ehtiyaclarına uyğun lokal qrant və təlim proqramlarının tətbiq edilməsi
- Kənd təsərrüfatı və aqro-startaplar üçün ayrıca dəstək mexanizmlərinin yaradılması
- Regional maarifləndirmə turlarının, KOBİA mobil komandalarının təşkili regiondakı sahibkarların narazılıq göstərdiyi əksər mövzularda kömək göstərəcəkdir.

# İnvestisiya və klasterləşmə sahəsində yeni yanaşma

KOBİA-nın dövlət və özəl sektor arasında **investisiya vasitəçiliyi** rolunu gücləndirməsi

Klasterləşmə proqramlarının real sektor tələblərinə uyğun yenidən dizayn edilməsi

Gömrük və ixrac prosedurları ilə bağlı sahibkarların səsini çatdıran **tənzimləyici forumlar** təşkil edilməsi

# Monitorinq və qiymətləndirmə mexanizmlərinin gücləndirilməsi

- Sahibkarların fikirlərinin toplanması üçün mütəmadi rəy sorğuları keçirilməsi
- KOBİA-nın fəaliyyəti üzrə illik **effektivlik hesabatı** hazırlanaraq ictimaiyyətə təqdim olunması
- Proqramların təsirinin konkret göstəricilər (iş yerlərinin sayı, ixrac artımı, dövriyyə artımı və s.) ilə ölçülməsi

# TƏŞƏKKÜRLƏR !